

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 206 (21.616)

*1 noyabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır





Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması diqqətdə saxlanılır. Bu məqsədlə aqrar-sənaye kompleksi inkişaf etdirilir, daxili bazarın tələbatı yerli istehsal hesabına ödənilir. Hər il yeni müəssisələr fəaliyyətə başlayır, keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal olunur.

Oktyabrın 31-də "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələri və anbarları istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Yerli istehsal müəssisələrinin fəaliyyəti yaxşılaşdırılır, istehsal olunan məhsulların keyfiyyəti diqqətdə saxlanılır, daxili bazarın tələbatı ödənilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 23 yeni istehsal və xidmət sahəsi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik edərək demişdir: "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasında məqsəd muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda dövriyyəsini təmin etməkdən ibarətdir. Bu gün muxtar respublikada 150-dən çox qapalı və dövlət tərəfindən təminatı həyata keçirilən müəssisələr vardır. Bu müəssisələrin ərzaq məhsulları ilə təchizatının əsas hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasından sonra qapalı müəssisələrin təminatının idxal hesabına ödənilməsinin qarşısı alınmış, bu müəssisələrin tələbatının tamamilə yerli məhsullar hesabına ödənilməsi təmin edilmişdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada həyata keçirilən bu tədbirlər daxili bazarda yerli istehsalın həcminin artmasına, yeni iş yerlərinin yaradılmasına, dövlət vəsaitlərinin ölkə daxilində qalmasına və səmərəli istifadəsinə imkan verdi. Dövlət vəsaitinin ölkə daxilində dövr etməsi isə daxili bazarın qorunmasına və insanların rifahının yaxşılaşdırılmasına xidmət edir. Daxili bazarın və dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılması müəssisənin qarşısında duran növbəti vəzifələrdir. Ona görə də müəssisədə fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, keyfiyyətə ciddi diqqət yetirilməli, gələcəkdə tələbata uyğun yeni istehsal sahələri fəaliyyətə başlamalı və məhsulların ixrac imkanları genişləndirilməlidir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullar öz keyfiyyəti ilə seçilir. Buna baxmayaraq, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi istehsal müəssisələrində keyfiyyətə daha ciddi nəzarət etməli, uşaq bağçaları, məktəblər, xəstəxanalar və digər qapalı müəssisələr yüksək keyfiyyət standartlarına malik yerli məhsullarla təmin edilməlidir. Dövlət Gömrük Komitəsi muxtar respublikada istehsal olunmayan məhsulların idxalını tələbata uyğun tənzimləməli, daxili bazar keyfiyyətsiz məhsullardan qorunmalıdır.

Ali Məclisin Sədri "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün bundan sonra da lazımi şəraitin yaradılacağını bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, müəssisədə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, müəssisənin ərazisində tikinti-quraşdırma işləri aparılmış, yeni avadanlıqlar, avtoyükləyici və yük avtomobilləri alınmışdır. Müəssisədə makaron istehsalı, bal, pendir və yabanı tərəvəz məhsullarının qablaşdırılması sahələri, müxtəlif temperatur rejimində və rütubətsiz şəraitdə fəaliyyət göstərən 4 soyuducu anbar, iş və xidmət otaqları yaradılmış, 50 yeni iş yeri açılmışdır. Soyuducu anbarlara tələbata uyğun kənd təsərrüfatı məhsulları tədarük olunmuşdur. İstehsal və qablaşdırma sahələrinin yaradılması muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və arıçılıq təsərrüfatlarında istehsalın həcminin artmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsulları ilə təchizatının mövsümə uyğun olaraq tənzimlənməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muzeylərə kollektiv gedişlər davam edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri oktyabr ayının 29-da Naxçıvan şəhərindəki Xatirə Muzeyində olublar.***



Bildirilib ki, Xatirə Muzeyi ermənilər tərəfindən törədilən soyqırımı qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılıb. 2015-ci ildən muzey Şəhidlər xiyabanı yaxınlığında yeni inşa edilmiş binada fəaliyyətini davam etdirir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış muzeyin fondunda 1500-dən artıq eksponat saxlanılır ki, onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Nümayiş etdirilən eksponatların hər biri tariximizin qanlı və şanlı səhifələrini özündə əks etdirir. Burada, əsasən, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanlarının, Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri və onlara aid materiallar qorunur. Muzeydəki 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı cinayətlər, 1937-1938-ci illərin repressiya qurbanları, 1941-1945-ci illər müharibəsinin Naxçıvandan olan iştirakçıları, eyni zamanda ən yeni tariximizdə baş vermiş 20 Yanvar, Xocalı soyqırımı hadisələri haqqında eksponatlar bu tarixi dövrlər barədə ətraflı məlumatlar verir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına şərait yaradır.

Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının xalqımıza qarşı törətdikləri dəhşətli cinayətlərin də izləri ekspozisiyada öz əksini tapıb.

Məlumat verilib ki, muzeydə 365 naxçıvanlının xatirəsi əbədiləşdirilib. Onlardan 8 nəfəri Azərbaycanın Milli Qəhrəmanıdır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri də Xatirə Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin kollektivləri Heydər Əliyev Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizlik Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri Bəhruz Kəngərli Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Gənclər və İdman, Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Ədəbiyyat Muzeyini, Dövlət Statistika, Meliorasiya və Su Təsərrüfatı komitələrinin, Televiziya və Radio Şurasının, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və "Şərq qapısı" qəzetinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Standartlaşdırma, Metrologiya və Patent, Ailə, Qadın və Uşaq Problemləri, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin kollektivləri Dövlət Bayrağı Muzeyini ziyarət ediblər.

Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin və Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri isə Hüseyn Cavidin ev-muzeyində və Xatirə Kompleksində olublar.

**Muxtar MƏMMƏDOV**

## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransı keçirilib

***Oktyabrın 28-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin iclas zalında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransı keçirilib.***



Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli təşkilatın konfranslararası dövrdə fəaliyyəti və qarşıda duran vəzifələr haqqında hesabat məruzəsi ilə çıxış edib. Məruzəçi bildirib ki, 24 il əvvəl – 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilən Yeni Azərbaycan Partiyası özünün qurucusu ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə tarixi yol keçib. Bu yol müstəqil Azərbaycanın müqəddəratını təyin edən mühüm tarixi mərhələni təşkil edir. 1990-cı illərin əvvəllərində Azərbaycanda gərginliyin hökm sürdüyü bir vaxtda, o dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə muxtar respublikamızda mütərəqqi tədbirlər həyata keçirilib, müstəqil dövlətçiliyimizin əsasları təsis edilib. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ilə müstəqillik tarixinin əsl dövlət quruculuğu mərhələsi başlanıb. 1993-cü ildə ulu öndərimizin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə bu quruculuq prosesi dövlətçiliyimizin, müstəqilliyimizin daha da möhkəmləndirilməsinə əvəzsiz töhfəsini verib.

Qeyd olunub ki, hazırda muxtar respublikamızda Yeni Azərbaycan Partiyasının 52 min nəfər üzvü arasında Naxçıvan Şəhər Təşkilatında qeydiyyatda olan partiya üzvləri əhəmiyyətli mövqeyə malikdirlər. X konfransını 2013-cü il may ayının 31-də keçirən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı hesabat dövründə ölkəmizin və muxtar respublikamızın ümumi inkişaf tempi ilə uyğunlaşmağa çalışıb, öz işində partiyanın Nizamnamə və Proqram tələblərinin, qurultayların, Naxçıvan Muxtar Respublika Təşkilatının konfranslarının, partiya rəhbərliyinin qərarlarının, sərəncamlarının və tapşırıqlarının həyata keçirilməsi istiqamətində ciddi səy göstərib.

"Məlumdur ki, partiyanın əsas inkişaf istiqamətlərindən biri partiyaya yeni üzvlərin qəbulu məsələsidir. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı 2016-cı il oktyabrın 1-nə olan məlumata görə, öz sıralarında 150 ərazi ilk təşkilatı üzrə 16 min 78 nəfəri birləşdirir. Onun 8 min 355 nəfərini, yaxud 52 faizini qadınlar, 9 min 85 nəfərini, yaxud 56,5 faizini gənclər təşkil edir", – deyən Elman Cəfərli diqqətə çatdırıb ki, hesabat dövründə partiya sıralarına 1665 nəfər üzv qəbul edilib. Onların da 1292 nəfərini, yaxud 77,6 faizini gənclər, 1137 nəfərini, yaxud 68,2 faizini qadınlar təşkil edir. Ərazi ilk partiya təşkilatı sədrlərindən 60 nəfəri qadınlar, 68 nəfəri gənclərdir.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin göstərişi ilə ilk təşkilatların Nizamnamə tələblərinə uyğun ərazi sistemi üzrə yenidən təşkili ilə bağlı aparılan ciddi iş partiya fəaliyyətinin daha da təkmilləşdirilməsinə, partiyadaxili işin operativliyinin təmin olunmasına, həm şəhər təşkilatının rəhbər strukturlarının, həm də ilk təşkilatların siyasi məsuliyyətinin və partiyada siyasi kadrların yetişdirilməsi işində səmərəliliyin artırılmasına səbəb olub. Nəticədə, konfransqabağı hesabat-seçki yığıncaqlarının keçirilməsi kampaniyası zamanı ilk partiya təşkilatlarının yenidən təşkili ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının əhatə etdiyi ilk təşkilatların sayı 187-dən 150-yə enib, siyasi işin keyfiyyət səviyyəsi yüksəlib. Bu gün muxtar respublikamızın əsas siyasi və elmi potensialı Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sıralarında cəmləşib. Təşkilat üzvlərindən 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin, 20 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarıdır. Üzvlərdən 2 nəfəri akademik, 6 nəfəri AMEA-nın müxbir üzvü, 20 nəfəri elmlər doktoru, 159 nəfəri müxtəlif elmlər üzrə fəlsəfə doktorlarıdır.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının nəzarət-təftiş qrupunun hesabatı və təşkilatın XI konfransının mandat komissiyasının məruzəsi dinlənilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayevanın, təşkilatın Gənclər Birliyinin sədri Cəbi Quliyevin, Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyevin məruzələr ətrafında çıxışları olub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin üzvü, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolundan, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının uğurlu fəaliyyətindən, Naxçıvan şəhərində görülən genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov bildirib ki, Yeni Azərbaycan Partiyasının Naxçıvanda təşəkkül tapması, partiyanın təşkilatlanmasının məhz buradan başlanması Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatını əhatə edən rayon (şəhər) təşkilatlarının şanlı tarixinin yazılması ilə yaddaqalan olub. 1993-cü il noyabrın 5-də Naxçıvan şəhərində təsis konfransı ilə ilk addımlarını atan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı bu gün öz ətrafında 16078 partiya üzvünü birləşdirir ki, bu da, bütövlükdə, muxtar respublikadakı partiya üzvlərinin 31 faizini təşkil edir. Olduqca böyük qüvvə olan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı muxtar dövlətimizin paytaxtının ictimai-siyasi həyatında çox yaxından iştirak edir. Partiyanın gücünün göstəricisi, necə deyərlər, onun ölçü indikatoru təşkilatın seçkilərdəki nəticələri ilə ölçülür. Bu mənada, son 5 ildə ölkəmizdə və muxtar respublikada keçirilmiş bütün seçkilərdə Naxçıvan şəhərində çox yüksək dəstək alan Yeni Azərbaycan Partiyasının nəticələri bunu deməyə əsas verir ki, bizimlə burda siyasi rəqabət apara biləcək heç bir qüvvə yoxdur.

Anar İbrahimov Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının yeni seçiləcək heyətinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib.

Elman Cəfərli yenidən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri seçilib.

Daha sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı şəhər şurasının üzvləri seçilib və onların sayı 23 nəfərdən 29 nəfərədək artırılıb. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı nəzarət-təftiş qrupunun 5 nəfərdən ibarət tərkibi, Qadınlar Şurasının və Gənclər Birliyinin hər birinin 11 nəfərdən ibarət üzvü seçilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı şurasının iclası keçirilib, idarə heyətinin üzvləri və şəhər təşkilatının sədr müavini seçilib. Qadınlar Şurasının və Gənclər Birliyinin iclaslarında da sədr və sədr müavinləri seçilib.

✍ **Rauf ƏLİYEV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin oktyabr ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

"İlk peşə-ixtisas təhsili pilləsində təhsil haqqında dövlət sənədinin nümunəsi və onun verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" və "Naxçıvan Muxtar Respublikasının ərazisinə gətirilən bəzi mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 oktyabr tarixli qərarları təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 20 oktyabr tarixində "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında dəyişikliklər edilməsi barədə", Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 may tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər"də dəyişikliklər edilməsi haqqında" qərarları təsdiq edilmişdir.

"Məhsul ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq məhsulların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 oktyabr tarixli qərarı təsdiq edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq əlaqələri genişlənir

***Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, universitetin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov və 2 nəfər fakültə əməkdaşı Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetində olublar. Ərzurum Atatürk Universitetində ali məktəbin rektoru, professor Ömer Çomaklının iştirakı ilə görüş keçirilib.***

Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömer Çomaklı qonaqları səmimi salamlayaraq qeyd edib ki, 20 fakültə, 7 institut və 10-a yaxın yüksək məslək məktəbinin fəaliyyət göstərdiyi, on minlərlə tələbənin təhsil aldığı Ərzurum Atatürk Universitetinin beynəlxalq əlaqələrində Azərbaycanın ali məktəblərinin, o cümlədən Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri vardır. Əməkdaşlığın inkişaf etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasında əməkdaşlıq uğurla davam etdirilir. Naxçıvan Dövlət Universiteti Türkiyə Cümhuriyyətinin 40-dan çox ali təhsil ocağı ilə əməkdaşlıq edir. Bunlar arasında 1992-ci ildən Ərzurum Atatürk Universiteti ilə yaradılan əlaqələr xüsusi yerə malikdir. Universitetlərarası əməkdaşlıq müqaviləsinə əsasən, bu gün elm və təhsilin inkişafı istiqamətində müştərək əhəmiyyətli addımlar atılmaqdadır. Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin və Baytarlıq təbabəti ixtisasının tələbələri müxtəlif vaxtlarda Ərzurum Atatürk Universitetində təcrübədə olublar, müştərək konfranslar keçirilib.

İki universitet arasında beşillik əməkdaşlıq memorandumu imzalanıb. Elm, mədəniyyət və sosial sahədə birgə fəaliyyəti və ortaq fikri inkişaf etdirmək məqsədi daşıyan memorandumda tələbə, akademik və idarə heyətinin mübadiləsini həyata keçirmək, müştərək elmi-tədqiqat layihələrini, simpozium, konfrans və digər elmi-sosial, mədəni tədbirləri gerçəkləşdirmək nəzərdə tutulub. Memorandumda Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müəllim və tələbələrinin gələcəkdə Ərzurum Atatürk Universitetində təcrübə keçmələri ilə bağlı ayrıca maddə öz əksini tapıb.

Səfər zamanı Ərzurum Atatürk Universitetində tibb təhsilinin səviyyəsi, əczaçılıq, stomatologiya və digər tibb profilli fakültələrdəki tədris prosesi ilə tanışlıq olub, 2000-ə yaxın tibbi personalın xidmət göstərdiyi 1400 çarpayılıq xəstəxanada yaradılan şərait, burada aparılan müasir tibbi-diaqnostik müayinə və əməliyyatlar, fəaliyyət göstərən tibb mərkəzləri qonaqlarda maraq doğurub.

**Mehriban SULTAN**

## Beynəlxalq Əmanət Günü qeyd edilib

***Dünən "Naxçıvan" Universitetinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə "31 oktyabr Beynəlxalq Əmanət Günüdür" mövzusunda konfrans keçirilib. Universitetin İdarəetmə fakültəsində keçirilən konfransı giriş sözü ilə ali məktəbin rektoru, professor İsmayıl Əliyev açaraq bu günün əhəmiyyətindən danışıb.***

Konfransda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi, universitetin İdarəetmə kafedrasının müəllimi Tural Şirəlizadənin "Bank əmanətlərinin ölkə iqtisadiyyatında rolu", Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərovun "Bank əmanətlərinin vergiyə cəlb olunmasının dünya təcrübəsi və Azərbaycanda tətbiqi mexanizmləri", "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekan müavini Naim Cahidzadənin "Bank əmanətlərinin sığortalanmasının əhəmiyyəti" mövzularında çıxışları olub. Çıxışlarda bildirilib ki, Beynəlxalq Əmanət Günü ilk dəfə 1924-cü ilin oktyabr ayında İtaliyanın Milan şəhərində 29 ölkənin nümayəndələrinin Beynəlxalq Konqresində qeyd olunub. Hazırda bu tədbir bütün inkişaf etmiş dünya dövlətlərində, o cümlədən Azərbaycanda da qeyd edilir. Beynəlxalq Əmanət Gününün qeyd olunması və Maliyyə savadlılığı aylığı ərzində müxtəlif maarifləndirici tədbirlərin keçirilməsində başlıca məqsəd əhalinin iqtisadi və maliyyə məsələləri üzrə məlumatlılığının artırılmasından ibarətdir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nuray ƏSGƏROVA**

***İqtisadi inkişafın mühüm göstəricilərindən biri xarici ticarətin həcmidir.***

## Muxtar respublikanın ixrac imkanları artır

Məhz aktiv xarici ticarət hesabına əldə olunan müsbət saldo ölkənin valyuta ehtiyatlarının artmasına və iqtisadi təhlükəsizliyin təmin olunmasına şərait yaradır. Naxçıvan Muxtar Respublikasında da daxili imkanlar hesabına iqtisadiyyatın şaxələndirilməsi regionun ixrac imkanlarını artırıb. Xüsusilə yerli istehsalın həcminin ilbəil artması xarici ticarət əlaqələrinin genişlənməsinə öz töhfəsini verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən qəzetimizə verilən məlumata görə, 2016-cı ilin ilk 9 ayında muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 332 milyon 998 min ABŞ dolları olub. Bir il öncəyə nisbətdə ixracın həcmi 1,9 faiz artaraq 302 milyon 100 min ABŞ dolları, idxalın həcmi 31,6 faiz azalaraq 30 milyon 898 min ABŞ dolları təşkil edib, nəticədə, 271 milyon 202 min ABŞ dolları həcmində müsbət saldo yaranıb.

Qeyd edək ki, xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi əhəmiyyətli rol oynayır.

**Xəbərlər şöbəsi**

### 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Naxçıvanda aqrar sahə uğurla inkişaf etdirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***

Ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan qısa müddətdə kənd təsərrüfatının inkişaf göstəricilərinə görə İttifaq respublikaları sırasında qabaqcıl yerlərdən birini tutmuşdur. Müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur tamamilə dağıdılmışdır. Lakin həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli lider kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu aqrar islahatlar həyata keçirilmiş, qanunvericilik bazasının yaradılmasına başlanılmış, "Aqrar islahatların əsasları haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları, Torpaq, Meşə və Su məcəllələri qəbul edilmişdir.

Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür, dövlət proqramları qəbul olunur.

Bu gün muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Aqrar sahədə aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olmuşdur. 2000-ci ildə muxtar respublikada 205 kəndi, 132 kolxoz, sovxoz və birlikləri əhatə etməklə aparılan torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın muxtar respublikada aqrar sahənin inkişafında mühüm rolu vardır.

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. 2016-cı ilin məhsulu üçün muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılmışdır. Cari ilin 9 ayı ərzində muxtar respublikada 100 min 768 ton dənli və dənli-paxlalı, 10 min 451 ton dən üçün qarğıdalı, 725,5 ton dən üçün günəbaxan, 71 min 704 ton tərəvəz, 41 min 405 ton kartof, 36 min 271 ton bostan məhsulları, 37 min 680 ton meyvə, 9 min 625 ton üzüm istehsal olunmuşdur. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.



Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, qapalı suvarma şəbəkələri qurulur, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Ötən il Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi istifadəyə verilmişdir. Suvarma sistemlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər bu il də davam etdirilir. Belə ki, cari ilin ötən dövrü ərzində meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilmişdir. Yeni suvarma sisteminin qurulması nəticəsində Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsində suvarma işləri yaxşılaşdırılmışdır ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır. Bununla yanaşı, Şərur rayonunun Ələkli kəndində suvarma xəttinin, Babək rayonunun Sirab kəndində qapalı suvarma xəttinin çəkilişi, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 117 hektar torpaq sahəsində qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Bütün bunlar torpaqlardan səmərəli istifadə edilməsinə və məhsul istehsalının yüksəldilməsinə imkan verəcəkdir.



Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Əsasən düzən yerlərdə heyvandarlığın ətlik-südlük istiqaməti inkişaf etdirilir. Bunlar da muxtar respublikada mal-qaranın baş sayının artırılmasına və əsas növ heyvandarlıq məhsullarının istehsalının çoxalmasına imkan yaradır. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 114 min 387 başa, xırdabuynuzlu heyvanların sayı isə 702 min 316 başa çatdırılmışdır. 2016-cı ildə heyvandarlığın inkişafı istiqamətində tədbirlər davam etdirilmiş, 6 heyvandarlıq təsərrüfatı yaradılmışdır. Ümumilikdə, bank və kredit təşkilatları tərəfindən cari ilin ötən dövrü ərzində bu sahəyə 7 milyon 29 min 600 manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur. Heyvandarlıq təsərrüfatlarında 6554 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 2781 baş sağlam bala alınmışdır.

Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün heyvandarlıqda və quşçuluqda baş verə biləcək xəstəliklərin qarşısını almaq məqsədilə Dövlət Baytarlıq Xidməti tərəfindən də tədbirlər həyata keçirilir. Əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir. Muxtar respublikada Dövlət Baytarlıq Xidməti və onun yerli qurumları tərəfindən mal-qara və quşlar arasında baş verə biləcək xəstəliklərə qarşı profilaktiki olaraq peyvəndləmə işləri epizootik tədbirlər planına uyğun həyata keçirilir.

Qəbul edilmiş dövlət proqramlarının icrası çərçivəsində, eləcə də verilən kreditlərin hesabına 64 quşçuluq təsərrüfatı yaradılmışdır. Əhalinin balıq əti ilə təmin olunması istiqamətində işlər də davam etdirilmiş, son illər 14 balıqçılıq təsərrüfatı fəaliyyətə başlamışdır.

Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunmasının böyük rolu olmuşdur. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, həm də şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1483 ədədi nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Alınmış texnika və aqreqatların 57-si 2016-cı ilin 9 ayında gətirilmişdir. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı güzəştlər müəyyən edilmişdir.



Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunur. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də istehsalçılara 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövr ərzində məhsul istehsalçıları 4905,3 ton mineral gübrə ilə təmin olunmuşdur. İstehsal olunan I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.



Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 13 min 280 ton olan 29 soyuducu anbar, sahəsi 126 min 672 kvadratmetr olan 20 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır.





İstehsal prosesində aqrotexniki qaydalara düzgün əməl etmək üçün sahibkarlar və torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri aparılır. Belə ki, tövsiyə xarakterli bukletlər hazırlanaraq torpaq mülkiyyətçilərinə və sahibkarlara paylanılır, muxtar respublikanın teleradiolarında maarifləndirici verilişlər hazırlanır, qəzetlərdə məqalələr dərc edilir.

***Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq tələbatın əsas etibarı ilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaranmışdır.***

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**

*Qarşıdan qış mövsümü gəlir. Havaların soyuması ilə əlaqədar olaraq muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artmağa başlayıb. Ötən illərin təcrübəsi göstərir ki, vətəndaşlar tərəfindən qaz cihazlarından təhlükəsizlik qaydalarına uyğun istifadə edilmədiyindən bir çox hallarda insan itkisinə səbəb olan partlayış, yanğın və zəhərlənmə kimi xoşagəlməz hadisələr baş verir. Sakinlər hələ də təbii qazdan, ümumiyyətlə, qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına tam əməl etmirlər. Onlar standartlara uyğun olmayan, istehsal mənşəyi bilinməyən qaz sobalarından və suqızdırıcılarından istifadə edir, qaz xətlərinin özbaşına çəkilməsi, qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılması kimi hallara yol verirlər.*

## Qaz cihazlarından istifadə edərkən təhlükəsizlik qaydalarına riayət olunmalıdır

Bütün bunları nəzərə alan Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha istehlakçıların, idarə, müəssisə, təşkilat rəhbərlərinin və vətəndaşların nəzərinə çatdırır, aşağıdakı təhlükəsizlik qaydalarına əməl olunmasını vacib hesab edir.

Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yanğın, partlayış və zəhərlənmə kimi arzuolunmaz hallardan mühafizə üçün mülkiyyət formasından asılı olmayaraq hər bir vətəndaşın bir sıra qaydalara, xüsusən də yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi zəruridir. Qaz cihazlarının xətlərində özbaşına dəyişiklik etmək, təhlükəsizlik qurğusunu çıxarmaq, rezin şlanqla qaz xəttinin çəkilişinə yol vermək olmaz. Qaz cihazlarının quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir. Qaz kəmərlərindən, qaz balonu və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir.

Vanna otağında qazla işləyən suqızdırıcı cihaz quraşdırmaq olmaz. Hamam otağına hava daxil olması üçün qapının aşağısında dəliklər açılmalı, nəfəslik açıq saxlanmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır.

Yaşayış evləri və mənzillərdə qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, sobaların həddindən artıq qızmasına yol vermək, onların istifadəsini azyaşlı uşaqlara etibar edib evdən çıxmaq olmaz. Mənzili tərk edərkən qaz cihazları söndürülməli, qaz borularının ventilləri bağlanmalıdır. Mətbəxdə qaz pilətəsi və suqızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Belə ki, qaz cihazları quraşdırılan mətbəx otağının hündürlüyü 2,2 metrdən az olmamalı, pəncərə açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir. Yaşayış evlərində qaz cihazlarından yanma məhsullarının xaric olunmasına diqqət yetirilməli, qaz cihazlarının tüstü boruları digər məişət cihazlarının borularına qoşulmamalıdır.

Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Dəm qazı ilə zəhərlənmə daha çox hava təchizatı pis olan otaq və qarajlarda, habelə standarta uyğun olmayan və kustar üsulla hazırlanan qaz sobaları və suqızdırıcılarının istismarı zamanı, həmçinin işlək vəziyyətdə olmayan tüstü bacaları və borularından baş verir. Qaz sobaları və suqızdırıcılarından tüstünün xaric olunması üçün standarta uyğun olmayan və tez qatlanan borulardan istifadə etmək olmaz. Bunun üçün yalnız düz axımlı metal borulardan istifadə olunmalı və eyni zamanda tüstü boruları binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Dəm qazının yaranmaması üçün otaqlar tez-tez havalandırılmalı, tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalıdır. Tüstü boruları və bacaları hər 2 aydan bir təmizlənməli, onların sazlığı daim yoxlanılmalıdır.

Yadda saxlamaq lazımdır ki, istənilən mağazadan qaz cihazını alan zaman onun sənaye üsulu ilə hazırlanmasına və avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmamasına diqqət yetirmək lazımdır. Həmçinin cihazları alarkən satışı həyata keçirən mağaza sahiblərindən uyğunluq sertifikatını, texniki pasportunu və Azərbaycan dilində istifadəsinə dair təlimatı tələb etmək vacibdir. Çünki partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi xoşagəlməz hadisələrin əksəriyyəti bu qaydaları bilməməkdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismar qaydaları, tüstü borusunun düzgün quraşdırılması, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik.

***Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "101" xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.***

**Mirtaleh SEYİDOV**
*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı*

## Naxçıvan Muxtar Respublikası üzrə 29 oktyabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən: buğda | o cümlədən: arpa |
|---|---|---|---|---|
| 1. | Şərur | 2375,0 | 2280,0 | 95,0 |
| 2. | Babək | 4177,0 | 2926,0 | 1251,0 |
| 3. | Ordubad | 539,0 | 426,0 | 113,0 |
| 4. | Culfa | 2246,0 | 2094,0 | 152,0 |
| 5. | Kəngərli | 2181,0 | 1257,0 | 924,0 |
| 6. | Şahbuz | 664,0 | 664,0 | - |
| 7. | Sədərək | 721,0 | 721,0 | - |
| 8. | Naxçıvan şəhəri | 343,0 | 302,0 | 41,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **13246,0** | **10670,0** | **2576,0** |

## Güləş birinciliyi başa çatıb



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışda idmançılar 8 çəki dərəcəsində mübarizə aparıblar. Dünya Güləş Birliyinin mövcud qaydaları üzrə təşkil olunan birincilikdə 60-dan çox güləşçi 2 gün ərzində qalibləri müəyyənləşdirməyə çalışıb.

Birinciliyin yekun nəticəsinə əsasən, 57 kiloqram çəki dərəcəsində Murad Quliyev qalib adını qazanıb. 61 kiloqram çəki dərəcəsində isə Sadiq Səfərov bu ada layiq görülüb. 65 kiloqram çəki dərəcəsində Ural Hüseynov, 70 kiloqram çəki dərəcəsində Məhərrəm Quliyev birincilikdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. 74 kiloqram çəki dərəcəsində Məzahir İsmayılov Yasin Quliyevə, 86 kiloqram çəki dərəcəsində Salam Qəribov Əli Muradova, 97 kiloqram çəki dərəcəsində Elməddin Abdullayev Röyal Nəcəfova qalib gələrək birinciliyin baş mükafatını qazanıblar. Ən ağır çəki dərəcəsində – 125 kiloqram çəki dərəcəsində isə Bahadur Əhmədov çətin görüşdə Salamullah İbrahimovu üstələməyi bacarıb.

Sonda qaliblərə Gənclər və İdman Nazirliyinin diplomları, Güləş Federasiyasının hədiyyələri təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

*Xalq yaradıcılığı*

## Aşıq sənətinin inkişafına geniş imkanlar yaradılıb

***Dünya ilə insanın ülvi vəhdətini yaradır saz. "Dilqəmi"yə qulaq asanda dağlarla ruhani ünsiyyətimiz başlayır, təbiət içimizə dolur, təbiətləşirik. Və ən əsası, sazda bizim xarakterimiz ucalardan səslənir – zərifliklə möhtəşəmlik. Saz çalınanda türk ata minib Babək olur, Koroğlu olur. Saz yalnız musiqi hadisəsi deyil, o, bizə uzaq qədimliyimizin xislətini çatdırır. Saz budur...***

Türkün tarixi heç vaxt sazsız olmayıb. Türk atın belində, qılınc dəstində, saz çiynində olanda yenilməz olub. Odur ki, bəstəkarların yaradıcılığına da böyük təsiri olan bu sənət barədə dahi Üzeyir Hacıbəyov deyirdi: "Aşıq sənəti yaşamalıdır, çünki o, xalqa daha yaxın olub, xalqın yaşantılarını xalq musiqisinin başqa növlərindən fərqli olaraq daha dolğun ifadə edir".

Böyük bədii təsir gücünə malik olan, qəhrəmanlıq, alicənablıq, xeyirxahlıq kimi ali dəyərləri özündə yaşadan, əsrlər keçdikcə cilalanıb müasir səviyyəyə çatan, folklorumuzun zənginliyini təsdiq edən aşıq sənəti Naxçıvanda da qədimdən inkişaf edib. Azərbaycan aşıq yaradıcılığına bəxş edilən "Koroğlu", "Misri", "Ağır Şərili", "Orta Şərili", "Cəlili", "Qəhrəmanı", "Dərələyəz gəraylısı" kimi saz və aşıq havalarının yaradıcıları məhz Naxçıvan aşıqlarıdır. Bu barədə Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırovla həmsöhbət oluruq.

Müsahibim bildirir ki, Azərbaycan aşıq sənətinin tarixində mühüm yeri olan, özünəməxsusluğu ilə folklorumuza qiymətli nümunələr bəxş edən Naxçıvan aşıq mühiti ötən əsrlər ərzində söz və saz yaradıcılığı sahəsində aşıq sənətinə qiymətli töhfələr verib. Qədim zamanlardan Naxçıvan aşıqlarının ifaçılıq qabiliyyəti qonşu ölkələrə də yayılıb. İyirminci əsrin əvvəllərinə qədər Naxçıvan aşıqları daha çox İran və Türkiyədə məclislərə dəvət olunublar. Onlar getdikləri yerlərə Naxçıvan aşıq mühitinin özünəməxsusluqlarını aparmaqla bərabər, o mühitlərin də çalğı və oxu tərzindəki incəliklərini mənimsəyərək Naxçıvana gətirir, Dərələyəz, Göyçə, İrəvan, Qarabağ aşıqları ilə də daim əlaqə saxlayırdılar. Aşıq Süleyman, Aşıq Cəlil, Aşıq Məmmədcəfər, Qonçabəyim, Aşıq Fətulla, Aşıq Əsədulla, Aşıq Dədəkişi, Aşıq Qulu, Ululu Kərim, Aşıq Nəcəfalı, Aşıq Mirzalı, Aşıq Bəhman, Həsən Məmmədəli oğlu kimi aşıqlarımız bu sənəti Naxçıvanda inkişaf etdiriblər. Bu gün Aşıq Aydının, Aşıq Şirinin və digərlərinin adlarını çəkə bilərik ki, Naxçıvanda aşıq yaradıcılığının inkişafına böyük əmək sərf edirlər. XIX əsr Azərbaycan aşıq sənətinin məşhur ustaları Aşıq Alı, Aşıq Ələsgər və Aşıq Hüseyn Şəmkirli Naxçıvana bir neçə dəfə gələrək yerli sənətkarlarla birlikdə sənət məclisləri qurublar ki, bu da həmin dövrdə bu bölgənin aşıq sənətinə münasibətini göstərir.

Tural Bağırov deyir ki, son illər muxtar respublikamızda aşıq yaradıcılığına göstərilən diqqət və qayğı bu sənətin inkişafına şərait yaradıb. Bu gün gənclərin aşıq sənətinə maraqlarının getdikcə artması da məhz bununla bağlıdır. Uşaq musiqi məktəblərində saz ixtisasının tədris olunması belə qayğının ifadəsidir. Musiqi məktəblərində saz sənəti üzrə təhsil alan və bu gün qədim musiqimizi inkişaf etdirən gənclərdən indi Aşıq Könülün, Aşıq Səkinənin, Aşıq Turacın, Aşıq Leylanın, Aşıq Elvinin və digərlərinin adlarını çəkə bilərik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamına əsasən, 2010-cu ilin dekabr ayından muxtar respublikada Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb. Qısa müddət ərzində Aşıqlar Birliyinin üzvləri qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasında keçirilən tədbirlərdə, Bakı şəhərində keçirilən "Telli sazın meydanı" məclisində muxtar respublikanı uğurla təmsil ediblər.

Azərbaycan aşıq sənətinin beynəlxalq aləmdə tanıdılması və təbliği, milli mədəniyyətin inkişafında aşıq sənətinin rolunun artırılması, Azərbaycan aşıqlarının və aşıq-ozan sənətinin yayıldığı ölkələrin sənətkarlarının bir araya gətirilməsi məqsədilə 2013-cü ildə keçirilən Beynəlxalq Aşıq Festivalında da Aşıqlar Birliyinin üzvləri iştirak ediblər.

Bu günlərdə Naxçıvan Aşıqlar Birliyi daha bir festivalda uğurla çıxış edib. Bakı şəhərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümü ilə bağlı keçirilən festivalda birliyin sədri Tural Bağırov və birliyin üzvü, balabançı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əli İsmayılov tərəfindən Naxçıvanın vəsfinə həsr olunan "İncə güllü" saz ifası tamaşaçılar tərəfindən maraq və alqışlarla qarşılanıb.

Birliyin sədri qeyd edir ki, bu gün Aşıqlar Birliyi öz ətrafında 28 üzvü birləşdirir. Birlik üzvləri muxtar respublikada aşıq sənətinin, aşıq musiqisinin təbliği və istedadlı aşıqlarımızın tanıdılması ilə bağlı fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır. Hazırda gənc istedadları aşkara çıxarmaq, müxtəlif səpkili müsabiqələr, tədbirlər keçirmək, onların yaradıcılıq qabiliyyətlərinin inkişafına nail olmaq, həmçinin Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda, eləcə də kənd mərkəzlərində yaradıcılıq görüşləri, saz-söz məclisləri təşkil etmək üçün Aşıqlar Birliyində hazırlıq görülür.

**Hafizə ƏLİYEVA**

***İtmişdir***

Hacıyeva Mərziyyə Rafiq qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 816